

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 200 (24.337)

*28 oktyabr 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Heydər Əliyev Sarayında Xalq artisti Fidan Hacıyevanın solo konserti olub





Oktyabrın 27-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Fidan Hacıyevanın Heydər Əliyev Sarayında solo konserti baş tutub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konsertə baxıb.

Naxçıvan Dövlət Filarmoniyasının Simfonik Orkestrinin, Azərbaycan Respublikasının Əməkdar artisti, tarzən Zeynalabdin Babayevin və Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Elçin Nağıyevin müşayiət etdiyi konsertdə Azərbaycan və Qərbi Avropa bəstəkarlarının əsərləri ifa edilib.

Orkestrin dirijorları beynəlxalq müsabiqələr laureatı Orxan Həşimov və Prezident mükafatçısı Cahangir Qurbanov, konsertmeysteri isə Azərbaycan Respublikasının Əməkdar artisti Nərgiz Əliyeva olub.

Həmçinin konsertdə Fidan Hacıyevanın oğlu Çarli Naylor pianoda Fridrix Şopenin "Noktürn" əsərini ifa edib.

Konsertin sonunda Fuad Nəcəfli səhnə arxasına keçərək kollektivlə görüşüb. Xalq artisti Fidan Hacıyeva dəvətə və təşkilatçılığa görə minnətdarlığını bildirib.

**"Şərq qapısı"**

## Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 45-ci Sessiyasında erməni təxribatının qarşısı alınıb

Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bu barədə öz sosial şəbəkə hesabında paylaşıb. Paylaşımda yazılır:

"Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 45-ci Sessiyası başa çatdı. Strasburqda milli nümayəndə heyətimizin tam tərkibdə iştirak etdiyi sessiyanın sonuncu günündə ermənilərin və onları dəstəkləyən qüvvələrin cəhdlərinə baxmayaraq, son anda sessiyanın gündəliyinə salınmış "Qarabağ və ətraf şəhərlər və regionlarda humanitar vəziyyətə dair Bəyanat"da "Dağlıq Qarabağ", "etnik təmizləmə", "ermənilərin mədəni və dini irsinin qorunması" və bir neçə bu tip müddəalar sənəddən təmizləndi. AŞPA-nın son sessiyasında qəbul olunan bəyanatın adında "Dağlıq Qarabağ" ifadəsinin saxlanmasından ilhamlanan ermənilər Avropa Şurası Konqresində də bunu təkrarlamağa çalışırdılar. Düzdür, bəyanat Azərbaycanı tam qane etmir, ümumiyyətlə, bu məsələ Azərbaycanın daxili işidir və heç bir müzakirəyə çıxarılmamalıdır. Amma nəticə budur. Milli nümayəndə heyətimizin təkidi ilə, həmçinin sessiya zamanı qəbul olunan "Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilmiş yerli seçkilərdə hesabatı"ndan məsələyə dəxli olmayan müddəalar ("Dağlıq Qarabağ", "Ruben Vardanyan – Dağlıq Qarabağın keçmiş dövlət naziri" və sair) və digər ifadələrdən təmizləndi. Müzakirələr göstərdi ki, Avropanın yerli və regional elitası da artıq yeni reallıqları qəbul edib. Başqa cür ola da bilməz, Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin yaratdığı yeni reallıqları görməməzlikdən gəlmək artıq alınmayacaq".

**"Şərq qapısı"**

## "Naxçıvan Muxtar Respublikasına interaktiv təhsil yardımı" layihəsinə dair müqavilə imzalanıb



Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Ticarət Nazirliyi arasında "Naxçıvan Muxtar Respublikasına interaktiv təhsil yardımı" layihəsinə dair müqavilə imzalanıb.

Müqavilə elm və təhsil naziri Emin Əmrullayev və Çinin Azərbaycandakı səfiri Qo Min tərəfindən imzalanıb.

Qeyd edək ki, sözügedən müqavilə Çin Xalq Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında bağlanmış texniki-iqtisadi əməkdaşlıq haqqında sazişlər çərçivəsində imzalanıb. Müqaviləyə əsasən Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, həmçinin Nazirliyə tabe müəssisələrin texniki infrastrukturunun qurulması, data mərkəzi və elektron platformanın yaradılması nəzərdə tutulur.

**Xəbərlər şöbəsi**

## *"Micro: bit CODING"* və *"Sosial texnologiyalar"* müsabiqələri keçirilib

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə STEAM təlim-Tədris Mərkəzində STEAM təhsili üzrə məktəblilər arasında ilk dəfə olaraq "Micro: bit CODING" və "Sosial texnologiyalar" müsabiqələri keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov çıxış edərək bildirib ki, son illərdə dünyanın elm və texnologiyalar sahəsində sürətli inkişafı, əldə edilən əhəmiyyətli nailiyyətlər qarşıya yeni vəzifələr qoyur, gənclərimizi gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlayır. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi qurulub, 154 təhsil müəssisəsində STEAM kabinələri yaradılıb. Bu sahədə müəyyən işlər görülsə də məktəblərdə bu fənnin tədrisi lazımi səviyyədə aparılmayıb, müəllimlərin bilik və bacarıqlarının artırılması istiqamətində lazımi tədbirlər həyata keçirilməyib.

Qeyd olunub ki, cari tədris ilində STEAM təhsilinin istiqamətli inkişafı üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə qarşılıqlı əlaqələr genişləndiriləcək, müəllimlərin kurslara cəlbi, STEAM kabinələrində avadanlıqların təminatı yüksəldiləcək.



Daha sonra müsabiqəyə start verilib. Müsabiqələrdə 46 komanda olmaqla, 120-yə yaxın müəllim və şagird iştirak edib.

Sonda qaliblər sertifikat və medalla mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## *"100-cü ilində Türkiyə Cümhuriyyəti"* adlı konfrans olub



AMEA Naxçıvan Bölməsində keçirilən konfransı bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, 2023-cü il Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünün, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd olunması baxımından əlamətdardır. Xalqımız həm də 2023-cü ildə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması kimi mühüm tarixi anlara şahidlik etdi.

Bir əsrdən artıq dövr ərzində Türkiyə tarixinə nəzər salan bölmə sədri böyük sərkərdə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə türk xalqının yazdığı şanlı tarixdən, İstiqlal savaşında öz tarixi torpaqları uğrunda apardıqları qətiyyətli mübarizədən, cümhuriyyət quruluşdan sonra Atatürkün ölkənin gələcək inkişafı üçün həyata keçirdiyi islahatlardan danışıb.

Hər iki ölkənin bir-birinə göstərdiyi dəstəkdən söz açan İsmayıl Hacıyev qeyd edib ki, bu dostluq II Qarabağ müharibəsində daha da aydın göründü. 15 iyun 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi qardaş ölkə ilə həm də müttəfiqliyimizin bəyanı oldu. Akademik çıxışı zamanı iki ölkənin birgə həyata keçirdiyi layihələrdən, onların səmərəliliyindən və icrası nəzərdə tutulan işlərdən bəhs edib.

Konfransda çıxış edən Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya Türkiyə Cümhuriyyətinin olduqca çətin şəraitdə yaradıldığını bildirib. Baş konsul istiqlala gedən yolda Azərbaycan xalqının türk qardaşlarına dəstəyindən, eləcə də Kazım Qarabəkir Paşa və Nuru Paşanın Naxçıvan və Bakının azad edilməsindəki xidmətlərindən bəhs edib.

Türkiyə və Azərbaycanın sarsılmaz bağlarla bir-birinə bağlandığını söyləyən Baş konsul yaxın tarixdə ölkələrimiz arasında inkişaf edən siyasi, iqtisadi və mədəni münasibətlərdən danışıb. Bu münasibətlərin davamı olaraq Naxçıvanda elm, təhsil və digər mədəni sahələrdə bir sıra işlərin görüldüyünü diqqətə çatdıran natiq gələcəkdə görülməsi nəzərdə tutulan işlərdən söz açıb, hər iki ölkə arasında tarixi və mədəni bağların gənc nəslə çatdırılmasının vacibliyini dilə gətirib. Millətimizin və dövlətlərimizin gələcək inkişafında bilikli, zəngin dünyagörüşünə sahib gənclərin rolunu qeyd edib.

Çıxışların ardından konfrans məruzələrin təqdimatı ilə öz işini davam etdirib.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun icraçı direktoru, AMEA müxbir üzvü, professor Vəli Baxşəliyev, həmin institutun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sara Hacıyeva məruzə ediblər.

Məruzələrdə Türkiyə-Azərbaycan qardaşlığının tarixi köklərinə nəzər salınıb, hələ sovet hakimiyyəti dövründə Türkiyə ilə münasibətlərdə Azərbaycanın rolu, müxtəlif tarixi hadisələr fonunda iki qardaş respublikanı birləşdirən Ümid-Dilucu körpüsünün mühüm tarixi əhəmiyyəti vurğulanıb.

İstiqlal müharibəsində türk ziyalıların mövqeyinin, bu mövzuda qələmə aldıqları əsərlərin diqqətə çatdırıldığı konfransda görkəmli şair və ədiblərimizin yaradıcılığında Türkiyə mövzusunun əksi məsələsindən və təsvir xüsusiyyətlərindən danışılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Bir millət,  iki dövlət

## TÜRKİYƏ CÜMHURİYYƏTİ 100



# Dünya dövlətçilik tarixinin möhtəşəm yüz ili

1299-1922-ci illərdə mötəbər, şanlı zəfərlərlə bəşər hərbi-siyasi salnaməsinə silinməz möhürünü vuran Osmanlı İmperiyasının layiqli varisi Türkiyə Respublikasının yaradılmasından 100 il ötür. Dünya dövlətçilik tarixinə qızıl hərflərlə həkk olunan möhtəşəm yüz il. Bu möhtəşəmliyə gedən yol heç də rəvan olmadı. Belə ki, 600 ildən artıq idi Osmanlı hegemonluğundan çəkinən bəzi müttəfiq qərb dövlətləri (Antanta) imperiyanın zəifləməsindən istifadə edərək onu parçalamaq, ərazilərini ələ keçirmək niyyətləri ilə hərəkətə keçdilər. Türkiyəni tarix səhnəsindən silmək məqsədi daşıyan I Dünya müharibəsinin acı nəticələrinə dair Mudros müqaviləsindən iki il sonra 1920-ci il avqustun 10-da 14 dövlətin səlahiyyətli nümayəndəsi tərəfindən Sevrdə (Fransa) imzalanan “Müttəfiq Dövlətlər və Türkiyə arasında sülh müqaviləsi” türk dövlətinin gələcəyini, taleyini sual altına salacaqdı; əgər bir sıra hərbi əməliyyatlarda uğur qazanmış, Osmanlı ordusunun ən istedadlı generallarından olan Mustafa Kamal Atatürk qurtuluş savaşına başçılıq etməsəydi. 1919-cu ildə dahi öndərin rəhbərliyi ilə türk ordusu haqq savaşına çıxaraq ölkəni işğal etmiş düşmənə sarsıdıcı zərbə vurdu, 1922-ci ilin avqustunda növbəti böyük qələbə dastanını yazdı.1923-cü il iyulun 24-də zəfər rəmzi sayılan Lozanna müqaviləsi bağlanılmaqla tarixi ədalətsizliyə xidmət edən Sevr müqaviləsi əhəmiyyətini itirdi. Bununla da 1923-cü il oktyabrın 29-da müstəqil Türkiyə Respublikası yaradıldı və zamanla öz hərbi qüdrəti, iqtisadi gücü ilə beynəlxalq aləmdə böyük nüfuz, söz sahibinə çevrildi. Qələbənin qazanılmasında Azərbaycan və Türkiyənin tarixi dostluq, qardaşlıq əlaqələri də öz rolunu oynadı, xalqımızın mərd oğulları türkiyəli qardaşları ilə birgə çiyin-çiyinə döyüşdülər, respublikanın qurulmasına aparan milli azadlıq mücadiləsində can qoydular. Dahi Mustafa Kamal Atatürk də xalqımızın qardaşlığa sadiqliyini yüksək qiymətləndirib: *“Azərbaycan xalqının bizimlə bizdən çox maraqlandığını bilirik”.*

### *Möhtəşəmliyin zirvəsi – 100-ün 20-si*

Bir əsrlik sarsılmaz, möhtəşəm dövlətçilik yolu qət edən Türkiyənin tarixinə 2003-cü ildən bəri son 20 il daha böyük uğurları, nailiyyətləri yazdırıb. Terrorla mübarizədə qalib olan qardaş ölkə mühüm güc mərkəzlərindən birinə çevrilərək siyasət meydanında da öz diktəsini yeritməyi bacarır. Regionda spesifik liderlik bacarığı, cəsarətli addımları, nüfuzu ilə seçilən Rəcəb Tayyib Ərdoğanın həm baş nazir, həm də prezidentlik dövrünə təsadüf edən bu qısa zaman kəsiyində qardaş ölkə siyasi, iqtisadi, mədəni, hərbi, bir sözlə, bütün sahələrdə nümunəvi inkişaf göstəriciləri əldə edib. Türkiyədə milli pul vahidi – türk lirəsi dəfələrlə devalvasiyaya uğrayıb dəyərini itirsə də, azad sahibkarlığın geniş yayılması, əlverişli biznes mühitinin formalaşması sayəsində bu amil iqtisadiyyata o qədər də mənfi təsir göstərə bilməyib. Əksinə, ilbəil həm daxili bazarda rəqabətqabiliyyətli məhsul istehsalı artır, həm də xaricə ixracda yüksələn temp özünü göstərir. Qeyd etdiyimiz məzənnə enişlərinə və inflyasiyaya rəğmən Türkiyə iqtisadiyyatı son 20 ildə real ifadədə 3 dəfə böyüyüb. 2003-cü ildə 314 milyard dollar ümumi daxili məhsula malik olan Türkiyə iqtisadiyyatı indi 900 milyard dollardan böyükdür. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il Türkiyədə ÜDM-in 1 trilyon 29 milyard dollara çatması gözlənilir. Ölkəmizdə də alıcıları kifayət qədər olan geyimlərin istehsalında Türkiyə şirkətləri, sözün əsl mənasında, brend formalaşdırıblar. Dünyanın hər yerində, o cümlədən Rusiya, Serbiya, Bəhreyn, Qətər, Livan, Səudiyyə Ərəbistanı, Qazaxıstan, Azərbaycan və digər ölkələrdə mağazaları, filialları fəaliyyət göstərən iri şirkətlər hər il iqtisadiyyata böyük həcmdə sərmayə yatırımları qazandırırlar.

Son illərdə qardaş ölkədə iqtisadiyyatın bütün sahələri, o cümlədən hərbi və avtomobil sənayesi güclü inkişaf yoluna qədəm qoyub. Hərbi sənaye istehsalında minimum itki ilə müasir, çevik döyüş əməliyyatlarının aparılmasında ən yeni texnologiyaların tətbiqi, xüsusilə diqqəti çəkir. Bu il Ankarada ilk dəfə keçirilən, Prezident cənab İlham Əliyevin də iştirak etdiyi “TEKNOFEST” aerokosmik və texnologiya festivalı da Türkiyənin ən modern müdafiə sənayesinə malik olduğunu bütün dünyaya göstərdi. Təbii ki, məhsulun keyfiyyəti onun praktikasından bəlli olur və digərlərinə nisbətdə sınaqdan çıxarılmış, effektivliyi sübut olunan vasitələrə daha böyük qiymət verilir. Təsadüfi deyildir ki, Azərbaycanın tarixi zəfərlə başa vurduğu 44 günlük Vətən müharibəsində düşmənin qurduğu mühüm strateji obyektləri darmadağın edən “Bayraktar TB2” pilotsuz uçuş aparatlarına da məhz müharibədən sonra böyük maraq yaranıb, dünyanın güclü ölkələri öz hərbi arsenalına bu silahı daxil etməyə can atırlar.

Türkiyə avtomobil sənayesində də böyük inqilabi inkişafa imza ataraq tarixə elektromobil istehsalçısı kimi də düşüb. Satışına bu ilin fevralında başlanılan, ikincisi Azərbaycan lideri cənab İlham Əliyevə verilən “Togg” Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markasıdır. Müəssisədə ildə 175 min avtomobil istehsal olunması planlaşdırılır və təxmini hesablamalara görə 2030-cu ilə qədər istehsal 1 milyonu ötəcək. Ümumiyyətlə, Türkiyənin iqtisadiyyatı, sənayesi o qədər geniş və çoxaspektlidir ki, bu barədə danışmağa kifayət qədər zaman lazımdır. Qısaca olaraq onu demək olar ki, son illər güclənən müdafiə sənayesi, qüdrətlənən iqtisadiyyatı sayəsində bu gün Türkiyə öz güclü ordusu, hərbi potensialına görə NATO-da ABŞ-dan sonra ikinci, iqtisadi gücü ilə “Böyük iyirmilik”də əsas üzvlərdən biridir...

### *“Türk qapısı”ndan Dilucuya uzanan qardaşlıq körpüsü...*

Türk dünyasının iki böyük lideri Mustafa Kamal Atatürkün “Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir” və Ümummilli Lider Heydər Əliyevin ***“Bir millət, iki dövlət”*** kəlamlarında özünün mükəmməl ifadəsini tapan qardaşlıq, dostluq əlaqələri tarixin ən çətin dönəmlərində öz sözünü deyib. I Dünya müharibəsində türkiyəli qardaşlarına pənah aparan azərbaycanlıların ötən əsrin 90-cı illərində, ondan sonrakı mərhələdə də haqq səsinə səs verən Xalq şairi Bəxtiyar Vahabzadənin təbirincə desək, ayı bir, ili bir, əşqi bir, yolu bir olan, dar gündə tanınan dostları idi. Şübhəsiz ki, Mustafa Kamal Atatürkün təkidi və təzyiqi nəticəsində 1921-ci ildə imzalanan və bu gün də qüvvədə olan Qars müqaviləsinin Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın işğaldan qorunmasında müstəsna rolunu da xatırlatmamaq olmaz...

Mustafa Kamal Atatürkün “Türk qapısı” adlandırdığı Naxçıvanı ağır blokada şəraitindən çıxarmaq, insanları aclıqdan, səfalətdən, qıtlıqdan qurtarmaq üçün gecəsini gündüzünə qatan Ulu Öndər Heydər Əliyev çıxış yolunu məhz Türkiyə ilə əlaqələrin siyasi cəhətdən daha da möhkəmləndirilməsində görürdü. Uzaqgörən siyasətçi bu məqsədlə 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfər etdi və səfər çərçivəsində “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu” imzalandı. Qısa zamanda Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanıldı.Ümummilli Liderin qardaş ölkəyə səfərindən iki ay sonra, daha dəqiq desək, 1992-ci il mayın 28-də arzuların, ümidlərin çiçək açdığı həmin körpü istifadəyə verildi. Beləliklə də, vaxtilə iki qardaşı ayrı salan, həsrət yanğısı ilə əsib-coşan Araz çayı həmin qardaşların vüsalına, birliyinə də vəsilə oldu. Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi: ***“Bu gün bu qocaman Araz çayı üzərində, qədim Türk dünyasında, Azərbaycan torpağında böyük bir tarixi hadisə baş verir. Türkiyə ilə Azərbaycan arasında “Ümid” körpüsü, “Həsrət” körpüsü açılır. Biz azərbaycanlılar, türklər əsrlərboyu Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, diləklərimiz gerçəkləşib”.*** İnsanların maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, qərbə inteqrasiyasına yol açan bu addım, eyni zamanda həmin dövrdə Sədərək və Şahtaxtı gömrük-keçid məntəqələrinin fəaliyyətə başlaması Naxçıvanın Türkiyənin yaxın vilayətləri ilə iqtisadi, ticarət əlaqələrinin genişlənməsinə, beynəlxalq daşımalara qoşularaq nəqliyyat imkanlarının artmasına da təkan verdi. Beləliklə, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizi müstəqilliyinə aparan yolun təməl daşlarının atıldığı mübarək türk torpağı Naxçıvanda həm də iki qardaş – Türkiyə və Azərbaycanın əlaqələrində yeni mərhələnin körpüsü salındı...

### *Dahi sələflərin ənənələrinə layiqli xələflərin sədaqət nümunəsi...*

Azərbaycan və Türkiyə xalqları arasında tarixən mövcud olan qardaşlıq, dostluq münasibətləri dahi öndərlər Mustafa Kamal Atatürk və Heydər Əliyev tərəfindən siyasi cəhətdən, rəsmi səviyyədə möhkəmləndirildikdən sonra bu qırılmaz əlaqələri hər iki ölkə başçısı cənab İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan etibarlı tərəfdaşlıq, sıx əməkdaşlıq, siyasi müttəfiqlik mərtəbəsinə qaldırdılar. Sözün əsl mənasında, ***“Bir millət, iki dövlət” şüarı “bir yumruq”*** tandeminə çevrildi. Bu özünü həyatın bütün sahələrində, həm siyasi, ictimai, iqtisadi, həm də təhsil, mədəniyyət istiqamətlərində göstərdi. Hər iki lider Prezident seçkilərindən dərhal sonra ilk dövlət səfərlərini qardaş ölkəyə etməklə, müxtəlif jestlərlə, bəyanatlarla siyasi arenalardan bu birlik və bərabərliyin mesajlarını ötürüblər. Bu barədə onlarla nümunə çəkmək olar. Sadəcə, iki nümunə kifayətdir: Prezident cənab İlham Əliyevin Avropa İttifaqının “Şərq tərəfdaşlığı” Proqramının sammitindəki çıxışı zamanı “Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam”, torpaqlarımızın hələ erməni işğalı dövründə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir” bəyanatları milliliyə, soykökə bağlılığın, dahi sələflərin irsi ənənələrinə layiqli xələflərin sədaqətinin müfəssəl inikasıdır...

Müxtəlif dövrlərdə hər iki ölkə liderləri tərəfindən yüksək kürsülərdən səsləndirilən siyasi bəyanatlarla yanaşı, çox uzağa getmədən yaxın keçmişdə baş verən bir neçə hadisəni, faktı incələmək yetər ki, bu dostluğun, qardaşlığın nələrə qadir olduğunu bir daha görək. Buna illərdir, orduları həm terrorla, həm də ərazi bütövlüyünə qəsdlərə qarşı mübarizədə döyüş təcrübəsinin qazanılmasına imkan yaradan birgə taktiki təlimləri, 2016-cı ildə Türkiyədə dövlət çevrilişinə cəhd, ölkəmizin parlaq Zəfəri ilə bitən 44 günlük Vətən müharibəsi, antiterror tədbirləri zamanı göstərilən mənəvi dəstəyi, müharibədən sonrakı mərhələdə imzalanan “Şuşa bəyannaməsini”, 2023-cü il fevralın 6-da Türkiyənin 10 vilayətində baş verən güclü zəlzələlərin fəsadlarının aradan qaldırılmasında qardaş yardımını qeyd etmək olar. Türkiyə liderinin Vətən müharibəsinin başlandığı anda “Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır”, eləcə də antiterror tədbirləri zamanı “Qarabağ Azərbaycan torpağıdır” bəyanatları dünya siyasi elitasına ünvanlanan ciddi mesajlar kimi təxribatçı qüvvələri yerinə oturdub ölkəmizin haqq-ədalət savaşını zəfərlə başa vurmasında böyük dəstək rolunu oynadısa, Şuşada tarixi bəyannamənin imzalanması əlaqələrimizi siyasi müttəfiqlik səviyyəsinə yüksəltdi. Qardaşlığın önəmi barədə danışdığımız zaman Şuşada təşkil olunması nəzərdə tutulan Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının “Fəlakət-fövqəladə halların idarə edilməsi və humanitar yardım” mövzusunda Fövqəladə Zirvə görüşünün məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə cari il martın 16-da Türkiyədə keçirilməsini də xüsusi qeyd etmək lazımdır...

Qars müqaviləsinin 100-cü ildönümü ərəfəsində, 2021-ci il iyunun 15-də Şuşada imzalanan bəyannamə müharibədən sonrakı dövrdə sülhə, tərəfdaşlığa xidmət edən mühüm akt hesab olunur və bəyannamədə diqqəti çəkən məqamlardan ən mühümü isə

Ardı 3-cü səhifədə

hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Belə ki, mühüm tarixi sənəddə qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar. Beləliklə, 100 il öncə Qars müqaviləsi ilə Naxçıvanın təhlükəsizliyini iki qardaş ölkə necə təmin etdisə, 1 əsr sonra da daha mötəbər şəkildə bir-birinin ərazi bütövlüyünə, suverenliyinə birgə təminat verdilər. “Şuşa bəyannaməsi” ilə ölkələrimiz arasındakı siyasi dialoqlar, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu və digər strateji sahələri əhatə edən müttəfiqlik əlaqələri rəsmi formada daha da genişləndirildi. Bu xüsusda Qarabağda, Şərqi Zəngəzurda gün ötdükcə həcmi genişləndirilən mühüm infrastruktur layihələrinə Türkiyə şirkətlərinin verdiyi töhfələri də qeyd etmək olar. Ümumilikdə, Azərbaycanın siyasi, diplomatik və iqtisadi uğuru hesab olunan bu tarixi sənədin müddəaları Qarabağ ərazisində yaşayan erməniəsilli Azərbaycan vətəndaşlarının inteqrasiyası üçün əlavə imkanlar yaratdı ki, bu həm də antiterror tədbirlərinin nəticəsinə aparan yolda zamanında atılan mütərəqqi addım kimi qiymətlidir...

### *“Ümid” körpüsündən etibarlı tərəfdaşlıq yoluna...*

Bir ürəkdə iki canı – Türkiyə və Azərbaycanı quru sərhədlə birləşdirən yeganə ərazi Naxçıvan tarixinin müxtəlif dönəmlərində, o cümlədən ötən əsrin əvvəllərində bu iki qardaşı necə qovuşdurdusa bu gün də siyasi müttəfiqlik, etibarlı tərəfdaşlıq yoluna qədəm qoymağına da geniş üfüqlər açır. 2008-ci il iyunun 4-dən 15 il sonra 2023-cü il sentyabrın 25-də türk sivilizasiyasının əsas mərkəzlərindən hesab olunan Naxçıvan diyarı yenidən iki qardaş ölkənin – Türkiyə və Azərbaycan prezidentlərinin görüşünə, bir sıra tarixi-siyasi addımların atılmasına şahidlik etdi. Regionda böyük nüfuz sahibi olan hər iki lider siyasi elitaya mühüm mesajlar verdilər, siyasi müttəfiqliyə, etibarlı tərəfdaşlığa xidmət edən anlaşma memorandumu, saziş, niyyət protokolu imzalandı.

Naxçıvan görüşündə regionun siyasi, iqtisadi mənzərəsini dəyişdirəcək ən mühüm tarixi hadisə İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasiminin keçirilməsi, eyni zamanda dünyada nümunə olan iki ölkə liderinin birgə hərbi obyekt açılışı etməsi idi. Prezident cənab İlham Əliyevin dediyi kimi: ***“İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisədir və bizim əlaqələrimizə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək”.*** Liderlərin görüşündə muxtar respublikanın “yaşıl enerji zonası”na çevrilməsinin əsas hədəf olduğu da açıqlandı və bu sahədə birgə əməkdaşlığın vacibliyi ön plana çəkildi. Həmin tarixi hadisədən cəmi 4 gün sonra sentyabrın 29-da Naxçıvan şəhərində Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın həmsədrliyi ilə keçirilən Azərbaycan-Türkiyə III Enerji Forumu və “Naxçıvan – Yaşıl Enerji Zonası” Beynəlxalq Konfransı da bu məsələdə həlledici əhəmiyyətə malik oldu. Konfrans və forum müddətində, panel iclaslarda səsləndirilən fikirlər, hər iki nazirin mətbuata verdiyi açıqlamalar, külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə imzalanan əməkdaşlıq sənədləri Naxçıvanın Türkiyə üzərindən “yaşıl enerji”nin istehsalı – ixracının mənbəyinə çevriləcəyinə əsaslı zəmin yaratdı. Ümumilikdə, “Şərqin qapısı”nda, Türk dünyasının sivilizasiya məkanında bu gün atılan mütərəqqi addımlar bir vaxtlar böyük ümidlə dostluq körpüsü salan iki qardaşın tərəfdaşlıq yolunda atdıqları inamlı addımların səsi, etibarlarının təntənəsidir...

*Yüzillik möhtəşəm dövlətçilik salnaməsi yazan Türkiyə Respublikasının tarixi inkişaf yoluna nəzər saldıqda son 20 ildə aparılan siyasətin bəhrəsi olaraq əsrə bərabər, regionda təsir gücü yaradacaq böyük layihələrin reallaşdırıldığını görürük. Şübhəsiz ki, Türkiyə-Azərbaycan etibarlı tərəfdaşlığı, qardaşlıq prinsipi əsasında birgə icra edilən TANAP, TAP, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və digər böyük layihələrin də qardaş ölkənin dünyanın siyasi, iqtisadi güc mərkəzinə çevrilməsində əvəzsiz payı vardır. Əminliklə demək olar ki, tarixi ənənələrə sadiqlik göstərən “bir ananın iki oğlunu” sarsılmaz tellərlə bağlayan bu siyasi müttəfiqliyin, etibarlı tərəfdaşlığın gətirəcəyi daha böyük uğur və nailiyyətlər hələ qarşıdadır...*

**Nail ƏSGƏROV**



2023-cü il “Heydər Əliyev İli”dir

# Milli dövlətçiliyin qurucusu Heydər Əliyevi və milli mədəniyyətin oyaq vicdanı Cavidi xatırlarkən

*Bu gün geriyə dönüb baxdığımızda milli dövlətçiliyimizin və milli dramaturgiyamızın inkişafında misilsiz xidmətlər göstərmiş dahi şəxsiyyətləri – Heydər Əliyev və Hüseyn Cavidi qürurla anırıq. Dahi Öndəri bütün cəhətlərinə görə qədim tarixi olan bu ölkənin, bu millətin milli öncülü hesab etdiyimiz kimi, böyük Cavidi də poeziyamızın nəhəngi saymaq olar. Müasir, müstəqil, Azərbaycan dövləti Ulu Öndərin əsəridirsə, Azərbaycan mənzum dramı Hüseyn Cavidin əsəridir. Etiraf etmək lazımdır ki, Heydər Əliyevlə Hüseyn Cavidi bir-birinə yaxınlaşdıran və oxşar edən cəhətlərin başında yaratmaq amalı dayanır. Görkəmli dövlət xadimimiz insanlara ədalətin və həqiqətin, millətə və Vətənə xidmətin düzgün yolunu göstərib, onları öz ardınca aparırdısa, Hüseyn Cavid öz əsərləri ilə insanlara ədalətin və həqiqətin düzgün yolunu göstərirdi. Heydər Əliyev tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tariximizin mükəmməl bilicisi idi. Cavidin əsərlərinin əksəriyyəti isə, demək olar ki, tarixi hadisələrdən qaynaqlanırdı. Cavid əsərlərində həyatdan qaynaqlanan həqiqət var idi. Heydər Əliyev isə həyatın düzlüyünün, saflığının vurğunu idi. Bəlkə də, bu və bir çox səbəbini bilmədiyimiz meyar və mənbələr idi onları bir-birinə bağlayan.*

### *Ölmək-yaşamaqdır! Sərsəm yaşamaq, ömrə yamaqdır*

Milli-mənəvi irsimizə dərindən bələd olan dahi Heydər Əliyev ədəbiyyatda yaradıcılıq psixologiyasına, forma və üslub axtarışlarına önəm verirdi ki, Cavid yaradıcılığı da bu baxımdan nümunə idi. O, Şərq şeirinin ən yaxşı poetik ənənələrini, Füzuli sənətkarlığına xas cəhətləri, Türkiyə romantiklərinin novator xüsusiyyətlərini inkişaf etdirərək yeni forma və fərdi üslub yaradırdı. Hüseyn Cavid əruz vəzninə yeni elementlər gətirərək əruzun özünəməxsus poetik fiqurlarını yaratdı. Ulu Öndərin dəyər verdiyi cəhətlərdən biri də məhz bu idi. Əli bəy Hüseynzadə Azərbaycan romantizminin estetikasını, Hüseyn Cavid isə poetikasını yaratdı.

1993-cü ilin sentyabrında dahi şəxsiyyət Heydər Əliyev AMEA-nın ziyalıları ilə görüşdə Cavid şəxsiyyəti və yaradıcılığı ilə bağlı gördüyü işləri belə xatırlayırdı: ***“Böyük filosof-şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz Vətəninə gətirildi, onun adı da yüksəldi. Ancaq təəssüf edirəm ki, 1982-ci ildə Hüseyn Cavidin 100 illiyi haqqında qəbul edilmiş qərarı Azərbaycanda on il ərzində həyata keçirmədilər. İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu?”*** Görkəmli dövlət xadimimizin Cavidlər ailəsi ilə tanışlığı uşaqlıq və gənclik dövründə baş vermiş, Cavidin böyük qardaşı Şeyx Məhəmməd Naxçıvanda onun ilk ana dili müəllimi olmuşdur. 1943-cü ildə ordudan qayıtdıqdan sonra Naxçıvana gələn Ərtoğrol Cavidi, sonralar isə Hüseyn Cavidin həyat yoldaşı Mişkinaz xanımı, şəxsi söhbətləri zamanı Cavid şərəfini, ləyaqətini həmişə uca tutaraq həyatın bütün ağrı-acılarına, keşməkeşlərinə ər kimi sinə gərən Turan Cavidi yaxşı xatırlayan dahi şəxsiyyət Heydər Əliyev ürəyində Cavid sevgisinin qüvvətlənməsində, şübhəsiz ki, ünsiyyətin böyük rolu olmuşdur. Bu bağlılıq və sevgi təkcə bununla tamamlanmamış, o dövrdə tələbə-gənclər arasında populyar olan Hüseyn Cavidin “Şeyx Sənan” faciəsində də baş rolu Ulu Öndər uğurla ifa etmişdir:

*Ah, bu sözlər nə qədər incə, dərin,*
*Böylə kəskinsə də, xoşdur şeirin!*

Hələ gələcəyin qeyri-müəyyən olduğu bir dönəmdə, Cavid məqbərəsinin ucaldılmasını proqnozlaşdıran Heydər Əliyevin ülvi məqsədləri, peyğəmbəranə uzaqgörənliyi, Cavid xatirəsi qarşısında bütün Azərbaycan xalqının daşımalı olduğu borc hissi heyrət doğurmaya və bu söz sahibi üstün zəka qarşısında baş əydirməyə bilmir.

Hüseyn Cavidi layiqli bir şəkildə Uzaq Sibirdən Vətənə gətirməyi bacaran dahi şəxsiyyət haqqında Turan xanım minnətdarlığını bildirərək yazırdı: “Onu da xatırlayıram ki, bunu eşidən digər millətlər də repressiya qurbanları olan böyük şəxsiyyətlərin, yaxınlarının cənazəsini öz diyarlarına gətirmək istədilər. Lakin qürbətdən doğma elinə qayıdan, doğma torpağa qovuşan təkcə Hüseyn Cavid oldu”.

Hələ 90-cı illərin əvvəllərində zülmətdə dayanıb nura qəhqəhə çəkməklə öyünən, küfrü haqq, mərifəti cəhalət sanan dövlət başçıları Heydər Əliyevin “Azərbaycanın milli sərvəti” adlandırdığı Elmlər Akademiyasını bağlamaq istəmirdilərmi? Və bu sərvəti xilas edən Cavidin Peyğəmbəri Heydər Əliyev olmadımı? Cavid tarixi məqamlarda ədalətin pozulmasını belə təsvir edirdi:

*Əvət, gözlər kordur, qulaqlar sağır,*
*Vicdanlar qabadır, tənələr ağır.*
*Fəqət sağır qulaqları açmalı,*
*Dikənli yollara güllər saçmalı.*

### *Cavid – ədəbiyyatımızda unikallıq göstəricisi, orijinal ifadələr təcəssümü*

Cavid yazdığı əsərləri ilə əbədiyyət işığı, romantizm simvolu, ədəbiyyat dünyamızın obrazlaşmış simasıdır. Onun özü, sözü, qələmə aldıqlarının açarı sevgidən keçir, sevgiyə gedir. Cavid elə bir işıqdır ki, onun səmadan yerə enişi, batışı olmadı. O, sönməz bir fikir işığı kimi parladı, parlayır və parlayacaq. Bəşəriyyətin yaradıcısının sevgisi ilə dolub-daşan dramaturq əsərlərinin təməlini sevgidə gördüyü üçün eşqlə yazır, eşqin işığı ilə yaradırdı. O, əsərlərini eyni eşqlə çıraqlandırdığı üçün sönməz poeziya günəşi tək əbədiləşib. Cavidin iz qoyduğu əsərlər həssas, sadə qəlblərin məskunlaşdığı, rahatlıq tapdığı, sığındığı doğma diyardır. Bizə sadəliyi incəlikləri ilə öyrədən Cavid həmişə bizimlə söhbət edəcək bir obrazı – “Gülbaharı” qoyub gedib. Cavid yazdıqları ilə bizə sevgini öyrətməyib, yazdıqları ilə sevgi olmağımızı öyrədib. O yalnız sevgi ilə deyil, həqiqətə aşiqliyi ilə də fərqlidir, orijinaldır. Oxucuları onun idrakını, fəlsəfəsini, həqiqətə olan aşiqliyini Azərləşərkən görür. Dolğun məzmunlu “Azər” bir çox əsərin fəlsəfəsinə yekun vurur. Cavid dünyası rəngarəng, çoxşaxəli mövzularla dolu olub. Bu doluluq ədəbiyyatımızın da boşluqlarını doldurub. O, bəzən yazdıqları ilə bir insanı yox, bütün yaradılışı, bəşəriyyəti dilləndirib. Bəşəriyyətin iç üzünü ortaya çıxaran Cavid insanları iblis donlarını ataraq saflaşmağa səsləyib. Cavid ədəbiyyatımızda unikallığın göstəricisi, orijinal ifadələrin təcəssümüdür. Onun qəlbə toxunan lirikası insan ruhunu qucaqlayan, onlara həmdəm olan misralardan ibarətdir. Cavid adının əbədiliyində elə bir işıq yandırmışdır ki, o işıq Cavid irsini bütün dövrlərdə öndə saxlayır, dünyaya tanıdır. Türkçülük, turançılıq sevdasından dönməyən dramaturq sözləri, misraları ilə dünyanı bölünməz və bir bütün olaraq görür.

Cavid aşıladığı sevgi ilə də hər zaman sevilib. O sevilməsə, Uzaq Sibirdən gətirilməzdi. Cismin qalıqları ona sevgili olan Naxçıvanına tapşırılmazdı. Onun sevgisi o qədər böyük idi ki, ona sevgi verən torpaq, onu sevgi ilə öz qoynuna almazdı.

### *Səni kimlər xatırlamadı, Cavid əfəndi*

Cavid “İblis”i yazdıqdan bir il sonra Mustafa Kamal adında bir savaşçı və xilaskar öndər ortaya çıxır. “İblis”i oxuyub oradakı Elxanın davranış və düşündüklərinə nəzər yetirərkən adama elə gəlir ki, Mustafa Kamal Atatürk bu əsəri oxuyaraq qurtuluş savaşına qatılıb. Türkiyədə Azərbaycanın səfiri kimi fəaliyyət göstərən İbrahim Əbilov öz xatirələrini Cavidə danışarkən deyərmiş ki, Mustafa Kamal “İblis”i tez-tez tamaşaya qoydurar və deyərdi: “Oradakı Elxan mənəm”.

Cavid əfəndi! Sən bir əsr əvvəl etdiyin duanın qəbul olmasının bəxtiyarlığını yaşatdın bizə. Türkiyə Cümhuriyyətinin Prezidenti, turançılıq sevdası ilə alışıb yanan Rəcəb Tayyib Ərdoğan tərəfindən uyuduğun torpaqda öz şeirinlə yad edildin. Bəlkə də, o şeiri sən hiss etdin deyə səsləndirdi:

*Hər bəladan əsirgə yurdumuzu,*
*Kamran eylə şanlı ordumuzu*

Türkoloqların təbiri ilə desək, Cavid türkcəsi, sadəcə, Bakıdan İstanbula, Təbrizdən Türküstana qədər böyük bir ərazidə anlaşılan bir dil deyil, ümumilikdə, XX yüz il türkologiyasından təzahür etmiş böyük hadisədir. Cavid Türkiyədə məşhur filosof Rza Tofiqdən, Məhmət Akifdən dərs alaraq Türkiyə ədəbi-mədəni mühitində Namiq Kamal, Şinasi, Ziya Paşa və bir çox tanınmış simalarla yaxından tanış olmuşdur:

*Gəldin də, niçin pəmbə buludlar kimi axdın,*
*Bilməm, niyə getdin, niyə döndün, niyə baxdın*
*Şimşək gibi çaxdın da, niçin könlümü yaxdın,*
*Bilməm, niyə getdin, niyə döndün, niyə baxdın?*
*“Enmərəm, kim istəyir qoy gəlsin,*
*hər kim məni sevirsə, yüksəlsin”*

Təbii idi ki, Cavid kimi gözəllik və haqq carçısının əsərlərinin lazımi səviyyədə nəşr edilməməsi Ulu Öndəri narahat etməyə bilməzdi. Lakin ömür bu dahi insana vəfa etməsə də, Onun özü qədər inandığı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Cavid külliyyatının orijinalına tam uyğun şəkildə, 2005-ci ildə şairin qızı Turan Cavid tərəfindən hazırlanmış beşcildliyi latın qrafikası ilə çap edilərək xalqa Cavid əbədiyaşarlığı çatdırıldı. “Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 24 sentyabr tarixli Sərəncamı da dahi ədibə göstərilən dövlət qayğısının əyani təzahürü oldu. Şübhəsiz ki, ataların başlatdığı milli-mənəvi dəyərlərə sahib vətənpərvərlik qayəsinin bayraqdarı övladlardır. Necə ki, ədəbiyyatımızda, incəsənətimizdə varislik ənənələrin davamlı inkişaf etdirilməsi özünü əyani şəkildə göstərirsə, eyni amil dövlətçilik siyasətimizdə də açıq-aşkar müşahidə edilir.

Bu gün Naxçıvanın ən sevgi dolu yeri Cavidin məqbərəsidir. Eşqi dadanlar barmaq uclarında ona üz tutur, sevgini doya-doya yaşayırlar. Dünyaya xoşbəxtlik arzu edən şairin faciəli, eyni zamanda qürurverici həyat tərzini, ailəsinin şan-şöhrətli tituldan vətən xaini damğasına qədər əzablı yol keçməsini, Cavidli və Cavidsiz günlərini yaşayan Cavidlər ailəsinin keşməkeşli həyat tərzini göz önündə canlandırarkən hər bir Cavidsevər özünü, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ilin oktyabr ayının 29-da Naxçıvanda açılışını etdiyi Cavid məqbərəsinin qarşısında görür. Burada Cavid ailəsi uyuyur. Bütün acılarını sarıb, həsrətlə bir-birini qucaqlayıb Ana Torpaqda yuxuya gediblər...

*Mən yetişdim atəşlə su*
*Öpüşdüyü bir ölkədən.*
*İzləyirkən sevgi yolu*
*Acı duydum hər kölgədən*

**Fariz ƏHMƏDOV**

***1992-ci ili həyatımın ən ziddiyyətli ili hesab edirəm. Çünki həmin il kədərlə sevinci, təəssüflə uğuru, ümidsizliklə ümidi bir arada yaşadım. Bir tərəfdən ermənilərin Naxçıvan iddialarının yenidən alovlanması, qədim diyara hücumların artması, ardı-arası kəsilməyən şəhid xəbərləri, yurdumuzun işğal təhlükəsi, digər tərəfdən, çoxsaylı sosial problemlər, işığın, qazın olmaması, çörəyin də qıta çəkilməsi... Belə bir vəziyyətdə mənim kimi, onlarla naxçıvanlı yeniyetmə universitetlərə qəbul imtahanlarına hazırlaşırdı. Qışın çox sərt keçdiyi, dizə qədər qarın yağdığı həmin günlərdə gecələr lampa işığında dərs oxuyur, səhərlər, necə deyərlər, buz kimi siniflərdə dərs keçirdik. Bəzən soyuqdan əllərimiz qələm tuta bilmirdi, bəzən isə qələm də soyuqdan yazmırdı... Gələcəyə isə ümidimizi heç vaxt itirmədik. Çünki Naxçıvanda Ulu Öndər Heydər Əliyev kimi ümid yerimiz, söykənəcəyimiz bir dağ var idi. Təsadüfi deyil ki, belə bir çətin vəziyyətdə 75 gənc məhz Onun təşəbbüsü ilə Türkiyəyə təhsil almağa göndərildi...***

# Ulu Öndərimiz Heydər Əliyevin Naxçıvandan Türkiyəyə təhsil almağa göndərdiyi 75 tələbə...

## *Onlar bu gün yüksəkixtisaslı kadrlar kimi Vətənə sədaqətlə xidmət edirlər*

Həmin il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən dahi şəxsiyyət martın 22-24-də Türkiyə Cümhuriyyətində səfərdə oldu və martın 24-də Ankarada diyarımız üçün çox əhəmiyyətli olan 13 maddədən ibarət “Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında işbirliyi protokolu” adlı müqaviləni imzaladı. Həmin müqavilədə 1921-ci il oktyabrın 13-də imzalanmış Qars müqaviləsi ilə Ankaranın üzərinə düşən öhdəliklər, Türkiyənin muxtar respublikanın təhlükəsizliyinə zəmanət verməsi məsələsi bir daha qeyd olundu. Burada, həmçinin Türkiyənin “Eksibank”ın qədim diyara 100 milyon ABŞ dolları dəyərində kredit verməsi, qardaş ölkənin dəstəyi ilə naxçıvanlı gənclərin Türkiyənin müxtəlif universitetlərində təhsil alması da nəzərdə tutulurdu.

Türkiyədən Naxçıvana gələn yüksək tələbə seçim qurumunun səlahiyyətli nümayəndələrinin iştirakı ilə 1992-ci il iyulun 4-də ölkəmizdə ilk dəfə test üsulu ilə imtahan keçirildi və təhsil almaq arzusunda olan 357 gəncdən 75 nəfəri Türkiyənin müxtəlif universitetlərinə qəbul oldu. Həmin gənclər arasında mən də var idim. Təbii ki, bunu öyrənəndə sevincimin həddi-hüdudu yox idi. Türkiyəyə yola düşməmişdən əvvəl Ulu Öndərimiz Heydər Əliyev ilə görüşəcəyimizi öyrəndikdə isə sevincim daha da artdı. “Şərq qapısı” qəzetinin 7 oktyabr 1992-ci il tarixli nömrəsində geniş işıqlandırılan həmin görüş 1992-ci il oktyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas zalında baş tutdu. Ümummilli Lider genişməzmunlu çıxışında Türkiyə universitetlərinə qəbul olan naxçıvanlı gəncləri təbrik etdi, bizə uğurlar arzuladı: ***“Türkiyənin universitetlərində yüksək təhsil sistemi var. Orada hazırlanan mütəxəssislər Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanın gələcəyi üçün çox gərəklidirlər... Gənclərin Türkiyənin universitetlərində təhsil alması, mən***


ШƏРГ ГАПЫСЫ

Нахчыван Мухтар Республикасынын мүдафиəсинин вə сəрһəдлəринин горунмасынын тəшкили һаггында

Сизə уғурлар олсун

***sizi inandırıram ki, Türkiyənin bizə ayırdığı 100 milyon dollar kreditdən də, göstərdiyi cürbəcür yardımlardan da çox-çox qiymətlidir. Çünki bu işin qiymətini heç bir pul, maddi dəyər ilə ölçmək olmaz. Bu bizim xalqın gələcəyidir, Naxçıvanın gələcəyidir, onun intellektual potensialıdır. Bu, bir də ona görə əhəmiyyətlidir ki, biz indi Azərbaycanda yeni dövlət qururuq və eyni zamanda yeni siyasi və iqtisadi sistem yaratmaq yolundayıq. Yeni siyasi və iqtisadi sistem, yeni sosial quruluş isə, şübhəsiz ki, özünə uyğun mütəxəssislər tələb edir. Bu işdə isə Türkiyənin təcrübəsi çox böyükdür...”***

Yuxarıda qeyd etdiyimiz kimi, həqiqətən də, o vaxtlar Naxçıvan çox çətin dövrünü yaşayırdı. Blokada və üstəlik müharibə şəraitində yaşayan, insanların normal yaşaması üçün zəruri ərzaq məhsullarına böyük ehtiyac duyduğu Naxçıvanda gənclərin yüksəkixtisaslı kadr kimi yetişmələrinə diqqət yetirilməsi bəzilərinə təəccüblü gələ bilərdi. Amma Ulu Öndərimiz təkcə bu günü deyil, gələcəyi də düşünürdü. Dahi şəxsiyyət qeyd edirdi ki, mövcud şəraitdə tələb olunanlar bu gün üçün, təhsilli gənclər yetişdirmək isə gələcək üçün çox vacibdir. Təhsilsiz heç bir millətin gələcəyi yoxdur. Ona görə də Ulu Öndər bizə yüksək ali təhsil almağı və hazırlıqlı kadr kimi Vətənə dönməyi, eyni zamanda mənəvi dəyərlərimizə sadiq qalmağı tövsiyə edirdi: ***“Biz arzu edərdik ki, gənclərimiz orada bütün imkanlardan istifadə edib yüksək elmə, yüksək ixtisasa yiyələnsinlər. Bilməlisiniz ki, siz, sadəcə olaraq, orada təhsil almağa yox, Azərbaycanın gələcəyi üçün oraya göndərilirsiniz. Ona görə də bütün universitetlərin imkanlarından istifadə edib yüksək təhsil almaq lazımdır. Siz orada Azərbaycan xalqına xas olan yüksək tərbiyə, yüksək mədəniyyət, yüksək mənəviyyat nümunələri göstərməlisiniz. Türkiyənin həyatında olan bütün müsbət nümunələrə, adət-ənənələrə yiyələnməlisiniz”.***

Biz gənclər Ulu Öndərin ata nəsihətindən qeyri-adi güc alırdıq. Hər birimizdə oxumağa, öyrənməyə olan həvəs birə on qat artırdı. Artıq zəif, kövrək duyğular bizi tərk etmiş, yerini gələcəyə olan inam almışdı...

1992-ci il oktyabrın 29-da – Türkiyə Cümhuriyyətinin yaranmasının 69-cu ildönümündə biz – 75 tələbə avtobuslarla Naxçıvan ilə İğdırı birləşdirən “Ümid” körpüsünü keçərək qardaş ölkəyə çatdıq. Əvvəlcə Qarsda, sonra Ərzurumda olduq. Ərzurumdakı Atatürk Universitetində Ərzurum valisinin və universitetin rektoru da daxil olmaqla akademik heyətin, tələbələrin iştirakı ilə möhtəşəm tədbir keçirildi. Adını xatırlamadığım valinin “Qardaş ölkədən Heydər Əliyevin tələbələri xoş gəliblər!” sözlərini hər kəs ayaq üstə alqışladı. Xatırlayıram ki, tədbirdə bir neçə tələbə yoldaşım da çıxış etdi, onlardan birinin oxuduğu şeir alqışlarla qarşılandı.

Həmin ildən sonra Türkiyənin, demək olar ki, əksər universitetlərində ən yaxşı oxuyan və sosial fəaliyyət baxımından ən fəal olan tələbələr azərbaycanlılar idi. Bu həmin dövrdəki Türkiyə rəhbərliyinin də diqqətini cəlb etmişdi. Təsadüfi deyil ki, hər bayramda Türkiyənin Baş naziri, siyasi partiya liderləri azərbaycanlı tələbələrə təbrik məktubları göndərir, təhsilimizdə əldə etdiyimiz yüksək uğurlar barədə məlumatlandırıldıqlarını və bizimlə fəxr etdiklərini bildirirdilər.

1994-cü il fevralın 10-u idi. Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri çərçivəsində İstanbula gəlmişdi. İstanbulda dahi şəxsiyyətlə görüşmək, onu yaxından görmək xoşbəxtliyi mənə də nəsib olmuşdu. Dahi şəxsiyyətdən xahiş etdim ki, universitetlərdə qış tətili dövrü olduğu üçün mənim də rəsmi heyətlə birlikdə Azərbaycana getməyimə icazə versin. Böyük İnsan heç tərəddüd etmədən ***“Əlbəttə, gedə bilərsən”***, – dedi və bununla bağlı tapşırıq verdi. Bu zaman ətrafdakı bəzi səlahiyyətlilərin mənə tərs-tərs baxdığını, ancaq məcburiyyətdən gülümsədiklərini də hiss etdim. Çünki bundan əvvəl onlardan xahiş etmişdim. Cavab isə belə olmuşdu ki, tələbə olduğuma görə rəsmi heyətlə gedə bilmərəm.

Ulu Öndərimiz ölkəmizin hələ gərginlikdən xilas olmadığı həmin dövrdə də tələbələrin təhsili və yaşayış şəraiti ilə maraqlanırdı. Bu məsələlərin diqqətdə saxlanılması üçün ölkəmizin Təhsil Nazirliyinə xüsusi göstəriş vermişdi. Qısa müddət sonra dahi şəxsiyyət tələbələrin əsas problemi barədə məlumatlandırıldı. Bu, Vətənə gəlmək və geri dönmək məsələsi idi. Heydər Əliyev dövlətin imkanı olan kimi bu məsələnin həll edilməsini əlaqədar qurumlara tapşırdı. Eşitdiyimizə görə, Türkiyədə Ümummilli Lider təkrar bu məsələyə qayıdanda həmin məmurlar təəccüblərindən



donub qalıblar. Məsələnin nə yerdə olduğunu soruşan dahi şəxsiyyətə deyəcək sözləri olmadığı üçün vəziyyətdən çıxmağa çalışıblar, ancaq alınmayıb. Sonra əlaqədar qurumların rəhbərləri belə bir təklif irəli sürüblər ki, Türkiyədə təhsil alan tələbələr təyyarə biletlərini yarı qiymətinə alsınlar. Ulu Öndər isə çox sərt bir şəkildə deyib ki, tələbənin bu qədər pulu haradandır?! Və ardınca Türkiyədə təhsil alan yüzlərlə gəncin hər il bir dəfə heç bir məbləğ ödəmədən Vətənə gəlmələrinin təmin olunması barədə xüsusi tapşırıq verib. Xatırlayıram ki, bu xoş xəbər Türkiyədə təhsil alan yüzlərlə azərbaycanlı tələbə tərəfindən hədsiz sevinclə qarşılanmışdı.

Vaxtilə Ulu Öndərin Türkiyədə təhsil almağa göndərdiyi həmin 75 tələbə isə təhsillərini başa vurduqdan sonra Vətənə qayıdaraq müxtəlif sahələrdə çalışmağa başladı, əldə etdikləri bilikləri, öyrəndikləri qabaqcıl təcrübəni öz sahələrində tətbiq etdilər. Bu gün Heydər Əliyev yoluna sədaqətləri ilə seçilən həmin yüksəkhazırlıqlı kadrlar arasında tanınmış həkimlər, müəllimlər, jurnalistlər, mühəndislər, dövlət məmurları və sair var. Hər biri türk xalqının öz millətinə, dövlətinə sədaqətini görərək və bunu nümunə kimi qəbul edərək öz xalqına, millətinə, dövlətinə böyük məhəbbətlə xidmət edir. Daim borclu olduqları Böyük İnsan isə, təbii ki, Ulu Öndərimiz Heydər Əliyevdir. Onlardan biri də söhbətin əvvəlində də hiss etdiyiniz kimi bu sətirlərin müəllifidir:

**Rauf ƏLİYEV**
***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri***

# Xalq artisti Fidan Hacıyeva: “Naxçıvan mənim ikinci vətənimdir”

Onu insanlara sevdirən təkcə səsinin sehri deyil, şirin dili, gülər üzü, insanın qəlbini isidən səmimiyyətidir. Sanki illərdir, tanıdığı insanlar kimi mehribanlıqla qucaq açır naxçıvanlılara. Naxçıvana “ikinci vətənim”, – deyən, təvazökarlığı, incə təbiəti ilə insanların qəlbinə yol tapan, insan qəlbini səsi ilə həmahəng titrədən bu nəcib xanım Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, beynəlxalq müsabiqələr laureatı, Azərbaycanın Xalq artisti Fidan Hacıyevadır. Musiqiyə hədsiz-hüdudsuz məhəbbəti olan Xalq artistinin Naxçıvanda Heydər Əliyev Sarayında keçirilən konsert proqramına həyəcanla yol aldıq. Sarayda izdiham müşahidə olunurdu. Hər kəs səbirsizliklə konsertin başlanmasını gözləyirdi. Və nəhayət, özünəxas duruşu ilə Fidan Hacıyeva səhnədə yer aldı. Aramsız alqışlarla qarşılanan sənətkar dahi bəstəkar, milli operamızın banisi Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettasından “Gülçöhrənin ariyası” ilə konsertə başladı. Konsertdə Naxçıvan Dövlət Filarmoniyasının peşəkar musiqi kollektivinin ifasında Avropa klassik musiqisi, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət musiqi nömrələri, mahnılar, romanslar, xalq mahnıları böyük maraqla izləndi.



Sonda Xalq artistinin ifasında dünya şöhrətli Müslüm Maqomayevin “Azərbaycan” mahnısı izləyicilər tərəfindən ayaq üstə alqışlandı. Keçirilən möhtəşəm konsert proqramını Naxçıvana, naxçıvanlılara olan böyük sevgiyə həsr etdiyini söyləyən Fidan Hacıyevanın ailəsi də onu böyük zövqlə dinləyirdi. Xalq artisti balaca oğlu Çarlinin bəstələdiyi, sözləri Vahid Əzizin olan “Ulu Öndər” mahnısını ifa etdi. Onu pianoda istedadlı Çarli müşayiət etdi. Bu Çarlinin səhnədə ilk çıxışı idi.

Konsertdən sonra mehriban, xoşçöhrəli Fidan xanım Naxçıvanla bağlı təəssüratlarını “Şərq qapısı” qəzeti ilə bölüşdü: “İlk dəfə böyük şair Məmməd Arazın sözlərinə yazılmış “Yaqin dağlar küsüb məndən” əsərinin musiqi klipini Nursu kəndində, dağlarda çəkilişini etdik. İlk səfərimdən bu diyarı çox sevdim. Mən Naxçıvanı ikinci Vətənim sayıram. Hər dəfə gələndə qonaqpərvərliyi, istiqanlılığı, insanların mənə və sənətimə qarşı hörmətini, sevgisini gördükcə fərəhlənir, xoş hisslər keçirirəm. Mən bu səmimiyyətə, bu böyük sevgiyə görə naxçıvanlılara minnətdarlığımı bildirirəm. Onu da qeyd etmək istərdim ki, çox qısa bir zamanda Naxçıvan Dövlət Filarmoniyasının orkestri möhtəşəm konsert proqramına yüksək səviyyədə hazırlaşmışdı. Təşkilatçılıq möhtəşəm idi.

Hər dəfə Naxçıvana gələndə mütləq Əshabi-kəhf ziyarətgahına gedirəm. Buraya gəldiyim gün həmin müqəddəs yeri ziyarət etdim, arzularımın, niyyətlərimin Allahdan qəbul olunmasını dilədim. Şükür ki, hər zaman bu müqəddəs ocaqda arzuladığım bütün diləklərim çin olub. Hər zaman orada xoş hisslər keçirirəm, xoş təəssüratla qayıdıram oradan, keçirdiyim hissləri sözlə ifadə edə bilmirəm. O möhtəşəmlik qarşısında həyəcanlanıram, daxilən rahatlıq tapıram. Dünən, ümumiyyətlə, Naxçıvanın bir çox yerini gəzdim. Buraya son səfərimdən bir neçə il keçməsinə baxmayaraq, çox dəyişiklik gördüm. Mühüm işlər görülüb. Naxçıvandakı tarixilik, qədimiliklə yanaşı, möhtəşəm yeniliklər, təzə-tər nəfəs var bu diyarda. Bu torpaq müqəddəs torpaqdır.

Bildiyiniz kimi, Bakıda Fidan Hacıyeva adına Vokal Musiqi Məktəbi fəaliyyət göstərir. Arzu edərdim ki, Naxçıvanda da həmin musiqi məktəbinin filialı açılsın, naxçıvanlı balalara bu sənəti özüm öyrədim. Artıq danışıqlar gedib. İstəyirəm ki, tezliklə bu arzum çin olsun. Mənə ustad dərsləri təklif olundu, amma mən istərdim ki, həmin məktəbin filialı fəaliyyətə başlasın. Mən burada həmin uşaqları yetişdirim, onları da dünyaya tanıdım. Çünki, həqiqətən də, burada çox gözəl səslər var.

Son olaraq qəzetiniz vasitəsilə Naxçıvan rəhbərliyinə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən gözləmirdim ki, səlahiyyətli nümayəndə Fuad Nəcəfli və nümayəndəliyin əməkdaşları konsertə gələcəklər. Mənə böyük sürpriz oldu. Bu mənim sənətimə böyük diqqətdir, hörmətdir, çox minnətdaram.

✍ **Gülcamal TAHİROVA**

## Elan

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Naxçıvan Şəhər Rabitə İdarəsi müasir standartlara uyğun Tier-3 səviyyəli Data Mərkəzinin layihələndirilməsi ilə bağlı açıq tender elan edir. Sorğunun keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxslər əməkdaşlığa dəvət edilir.

Müsabiqədə iştirak, qiymətləndirilmə və digər bütün prosedurlar yalnız elektron qaydada *etender.gov.az* portalı üzərindən keçirilir.

Tender Komissiyasında iştirak edən şəxslərin 16 noyabr 2023-cü il, saat $13^{00}$-a kimi qeydiyyatdan keçmələri xahiş olunur.

### *İtmişdir*

Sədərək rayonunun, Sədərək kənd sakini Mehdiyeva Xanımzər Məmməd qızının adına olan JN-1388A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayon Bənəniyar kənd sakini Rzayev Həsən Hüseyn oğlunun adına olan JN-481A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Bülbül Quliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 628